**Qubadlının işğalından 27 il ötür**

**1993-cü il avqustun 31-də Qubadlı rayonu da ermənilər tərəfindən işğal olundu. İşğaldan sonra rayon əhalisi məcburi köçkün həyatı yaşasa da Qubadlı sakinləri öz qürur və ləyaqətini qoruyub saxlaya bildi. Bu gün Qubadlının əhalisi respublikamızın 41 müxtəlif şəhər və rayonunda məskunlaşmışdır. Rayonun idarə, müəssisə, təşkilatları əsasən Bakı və Sumqayıt şəhərlərində, eləcə də Abşeron rayonunun ərazisində yerləşir.**

# Nəbi yurdu yolumuzu gözləyir





Sumqayıt şəhərində yerləşən Qubadlı Rayon İcra Hakimiyyətinin yeni tikilmiş 3 mərtəbəli inzibati binasında 200 nəfərlik iclas zalı, 40 nəfərlik müşavirə zalı, rayon Tarix Diyarşünaslıq Muzeyi yerləşir. Burada 2 mərtəbəli inzibati bina əsaslı təmir edilmiş, rayonun 24 inzibati ərazi dairəsi üzrə nümayəndəlikləri və rayon Qarabağ Müharibəsi Əlilləri, Şəhid Ailələri və Müharibə Veteranları cəmiyyətlərinin istifadəsinə verilmişdir.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın qayğısı nəticəsində rayon əhalisinin sosial problemləri mütəmadi olaraq həllini tapmışdır. Məcburi köçkünlərin yeni mənzillərlə təmin olunması həmişə diqqət mərkəzində olmuşdur. Rayon sakinlərinin məskunlaşma yerlərində yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində işlər sürətlə davam etdirilir. Bildiyimiz kimi Abşeron rayonunun Sumqayıt stansiyası adlanan ərazisində və Sumqayıt şəhər 12-ci mikrorayon ərazisində məcburi köçkünlər üçün inşa edilmiş şəhərciklərdə məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi işi tam başa çatdırılmışdır. Min beş və min bir ailəyə hesablanan qəsəbələrin əsas kontingenti Qubadlıdan olan məcburi köçkünlərdir. Bununla yanaşı, Qaradağ rayonundakı "Ümid" qəsəbəsinə 19 ailə, Şirvan şəhərindəki şəhərciyə 19 ailə, "Qobu-Park" yaşayış kompleksinə 22 ailə, Piralləhı rayonunda salınmış şəhərciyə 9 ailə, Kürdəxanı qəsəbəsində salınmış yaşayış kompleksinə 5 ailə və "Qobu-Park" yaşayış kompleksinə 15 ailə köçürülmüşdür. Hazırda Sumqayıt stansiyası ərazisində 3 məktəb--Hal, Dəmirçilər və 4 saylı Qubadlı şəhər məktəbləri, 1 saylı körpələr evi və uşaq bağçası, rabitə qovşağının poçt agentliyi, Mahrızlı kənd həkim məntəqəsi fəaliyyət göstərir. Bu il rayon Mərkəzi Xəstəxanasının yanında Gigiyena və Epidemiologiya Mərkəzinin yeni binası tikilib istifadəyə verilmişdir. Rayonda 20 min 800 nəfər əmək qabiliyyətli əhali var. Ümumiyyətlə, son illərdə rayon üzrə 4 min 203 yeni iş yeri açılmış, 1612 sahibkarlıq subyekti yaradılmışdır.

Rayonda müasir dövrün tələbləri səviyyəsində 32 ümumtəhsil məktəbi fəaliyyət göstərir. Son illər ərzində 21 məktəb binası yenidən tikilərək əsaslı təmir edilmişdir. Son zamanlar rayonun tarixində əlamətdar hadisələrlə yadda qalmışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi donanmasının "Qubadlı" adlı yeni təchizat gəmisinin istismara verilməsi mərasimi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın iştirakı ilə Ramana qəsəbəsində müasir tələblərə cavab verən Qubadlı rayon Xanlıq kənd ümumi orta məktəbinin açılış mərasimi keçirilmişdir.

Kənd təsərrüfatı sahəsində də müəyyən işlər görülmüşdür. Rayon icra hakimiyyətinin köməkliyi ilə baramaçılığı inkişaf etdirmək üçün Füzuli və Sabirabad rayonları ərazisində əkilmiş 10 min 500 ədəd tut tingInə aqrotexniki qaydada qulluq edilərək bütün tədbirlər görülmüşdür. Rayonda hazırda 5200 arı ailəsi vardır.

Bütün bayram və əlamətdar günlərdə şəhid ailələrinə, imkansız və aztəminatlı ailələrə mütəmadi olaraq yardımlar edilmişdir. Rayon icra hakimiyyətinin daxili imkanları hesabına yas mərasimlərinin təşkili, xəstələrin müalicəsi və sair məsələlərlə bağlı aztəminatlı ailələrə maddi kömək edilmişdir. Böyük Vətən müharibəsi veteranlarına hər il Qələbə Günü münasibətilə maddi yardım edilmişdir. Rayon Mərkəzi Xəstəxanasının poliklinikası müasir səviyyədə tikilərək bütün zəruri avadanlıqlarla təmin edilmişdir. Xəstəxananın poliklinika şöbəsi 4 səhiyyə müəssisəsi ilə birlikdə məcburi köçkünlərə tibbi xidmət göstərilməsi işini davam etdirir. Sumqayıt Regional Mədəniyyət İdarəsinin rayon nümayəndəliyi keçirdiyi tədbirlərin daha mütəşəkkil aparılmasına səy göstərir. Nümayəndəliyin yerləşdiyi "28 May" Mədəniyyət evinin binası əsaslı təmir edilmişdir. Burada 271 nəfərlk iclas zalı, ulu öndər Heydər Əliyevin xatirə guşəsi yaradılmış, mərkəzi kitabxana və Mahmudlu kənd Uşaq Musiqi məktəbi üçün otaqlar ayrılmışdır.

Gənclər siyasətinin rayonda ardıcıl həyata keçirilməsi üçün müntəzəm iş aparılır. Rayonun gəncləri dünyanın idman arenalarında Azərbaycanı ləyaqətlə təmsil edirlər. Köçkünlük dövründə rayonun 57 idmançısı dünya və Avropa çempionatlarının, beynəlxalq turnirlərin qalibləri olmuşlar. Gənclər və İdman İdarəsi əlaqədar təşkilatlarla birgə gənclərdə hərbi vətənpərvərlik hisslərinin gücləndirilməsi, Vətənə bağlılıq, pis vərdişlərdən uzaq olmaları məqsədilə müntəzəm olaraq tədbirlər keçirmişdir. Rayon rəhbərliyinin diqqət və qayğısı nəticəsində idmançılar üçün yaxşı şərait yaradılmışdır. Hazırda rayonun 4 ümumtəhsil məktəbində idman zalı idmançıların ixtiyarına verilib.

Qubadlı rayonu torpaqlarımızın bütövlüyü uğrunda mübarizədə 238 şəhid vermişdir. Bununla yanaşı, 316 nəfər Qarabağ əlili,100 nəfərdən çox insan isə itkin düşmüş kimi qeydə alınmışdır.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə rayondan olan 11 nəfər Azərbaycanın Milli Qəhrəmanı adı ilə təltif olunmuşdur. Onlardan Şükür Həmidov və Fəxrəddin Cəbrayılov hazırda öz fəaliyyətlərini davam etdirirlər. Şəhidlərin xatirəsinin anılması, şəhid ailələrinə qayğı rayon rəhbərliyinin daimi diqqət mərkəzində olan məsələlərdəndir.

2016-cı ilin Aprel döyüşlərində Azərbaycan Ordusu öz qüdrətini bir daha sübut edərək göstərdi ki, bu ordu nəinki ölkəmizin ərazi bütövlüyünü mənfur düşməndən qorumağa, həmçinin Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ərazilərimizi çox qısa müddətdə düşməndən azad etməyə qadirdir. Ali Baş Komandan cənab İlham Əliyev Aprel döyüşlərində fərqlənən Şükür Həmidova Azərbaycan Respublikasının Milli Qəhrəmanı, Mais Bərxudarova general-mayor hərbi rütbəsi vermiş, Faiq Qasımovu isə "İgidliyə görə" I dərəcəli medalla təltif etmişdir. Qubadlının qəhrəman oğullarının yüksək fəxri ad və hərbi rütbə alması rayon sakinlərinin hədsiz sevincinə səbəb olmuşdur.




Rayonda bu gün əsas aparıcı siyasi təşkilat Yeni Azərbaycan Partiyasıdır. Çinin Uhan şəhərində 2019-cu ilin dekabr ayında ortaya çıxan yeni növ koronavirus bütün dünyada geniş yayılmaqdadır. Qeyd edək ki, 11 mart 2020-ci ildə Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) yeni növ koronavirusu pandemiya elan edib. Pandemiya demək olar ki, dünyanın bütün ərazisində kütləvi şəkildə yayılan, bir çox hallarda ölümə səbəb olmaqla dünya əhalisini təhlükə altına atmaqdadır. Bir çox ölkələr koronavirus infeksiyasına qarşı ciddi tədbirlər görməkdədir.

Koronavirus xəstəliyinin Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması, profilaktik və təxirəsalınmaz tədbirlərin operativ həyata keçirilməsi məqsədilə Nazirlər Kabineti yanında aidiyyəti dövlət orqanlarının və qurumlarının rəhbər şəxslərindən ibarət operativ qərargah yaradılıb. Virusun yayılmasının qarşısının alınması və profilaktikası, əhalinin sağlamlığının mühafizəsi ilə bağlı bütün lazımi tədbirlər ən yüksək səviyyədə davam etdirilir.

Qubadlı rayonunda da koronavirus infeksiyası ilə bağlı genişmiqyaslı tədbirlər həyata kebirilir. Belə ki, infeksiyanın yayılması hallarının qarşısının alınması, bu sahədə aparılan profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə müvafiq tapşırıqlara əsasən, rayon Gigiyena və Epidemiologiya Mərkəzi və aparılan təmizlik və dezinfeksiya işlərinə cəlb edilmiş rayon kommunal müəssisələr kombinatının işçiləri tərəfindən əhalinin kompakt məskunlaşdığı yerlərdə dezinfeksiya işləri aparılmışdır.

Qeyd etmək lazımdır ki, pandemiya dövründə 3300 ailəyə yardım verilmiş, onlardan 1356-sı Heydər Əliyev Fonduna məxsusdur. Pandemiya ilə əlaqədar Məşğulluq Mərkəzi tərəfindən də 651 ailəyə 190 manat birdəfəlik yardım edilmişdir. Eyni zamanda, 19 nəfər ictimai işlə təmin olunmuşdur.

Qubadlıların məskunlaşdığı şəhər və rayonların heç birindən Qubadlı dağları görünmür. Ancaq hər bir qubadlılı dünyanın hansı nöqtəsində məskunlaşmağından asılı olmayaraq, Qubadlı dağlarını öz ürəklərinin gözü ilə görürlər. Və tezliklə doğma yurda qayıdacaqlarına inanırlar. Prezidentimiz İlham Əliyevin apardığı müdrik siyasət buna zəmanət verir.

***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 30 avqust.- S.5.